# Dünyanın enerji nəbzi Bakıda döyünür

## *Regionun aparıcı sənaye tədbiri olan, hər il qlobal enerji liderlərini bir araya gətirən "Baku Enerji Həftəsi"nin 30-cu yubileyi diqqət mərkəzində*

**İyunun 2-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.**

"Artıq qeyd edildiyi kimi, 1994-cü ildə ilk sərgi təşkil olunmuşdur və həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə müqavilə bağladı. Daha sonra bu, "Əsrin müqaviləsi" adlandırıldı. O, əslində, regionda geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirdi". Bu fikirləri Prezident İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışında deyib. Bildirib ki, bu Prezident Heydər Əliyevin baxışına uyğun idi. Bizim "yaşıl enerji" gündəliyimiz çox genişdir. Azərbaycan neft və qaz ölkəsi olmaqla yanaşı, investorlarla bərabər məhz "yaşıl enerji"yə sərmayə qoyub. Bu da bizim məsuliyyətimizi nümayiş etdirir. Bütün bu yaşıl enerji potensialımız nəticəsində Azərbaycanın elektrik enerjisinə artan tələbatını məhz bərpaolunan enerji hesabına təmin edəcəyik.

**(davamı 8-ci səhifədə)**




# Dünyanın enerji nəbzi Bakıda döyünür

***Regionun aparıcı sənaye tədbiri olan, hər il qlobal enerji liderlərini bir araya gətirən "Baku Enerji Həftəsi"nin 30-cu yubileyi diqqət mərkəzində***









**(əvvəli 1-ci səhifədə)**

Regionun aparıcı sənaye tədbiri olan və hər il qlobal enerji liderlərini bir araya gətirən "Bakı Enerji Həftəsi" 30-cu dəfə keçirilir. Əsası qoyulduğu gündən etibarən forum beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, qabaqcıl təcrübələr mübadiləsi və yalnız Azərbaycanın deyil, bütövlükdə regionun enerji sektorunun inkişafına təsir edən sazişlərin imzalanması üçün əsas platformaya çevrilib. Forum enerji sahəsinin liderlərini, biznes nümayəndələrini və dövlət qurumlarının nümayəndələrini bir araya gətirərək bu sahədə beynəlxalq əməkdaşlığın inkişafına töhfə verir. Ötən illər ərzində "Bakı Enerji Həftəsi" həm regional, həm də beynəlxalq səviyyədə etibarlı enerji platforması kimi formalaşaraq, qlobal tədbirlər təqvimində mühüm və gözlənilən hadisələrdən biri olmuşdur. "Bakı Enerji Həftəsi" özündə üç mötəbər tədbiri birləşdirir: 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum". "Caspian Oil and Gas" və "Caspian Power" sərgiləri Bakı Ekspo Mərkəzində, "Baku Energy Forum" isə ekoloji konseptdə inşa edilmiş Bakı Konqres Mərkəzində keçirilir. "Bakı Enerji Həftə"sinin təşkilatçıları artıq uzun illərdir ki, yubiley dövrlərində xüsusi tədbirlər keçirmək ənənəsini formalaşdırıblar. "Bakı Enerji Həftəsi"nin 30 illik yubileyi çərçivəsində təşkilatçılar xüsusi proqram hazırlayıblar.

"Bakı Enerji Həftəsi" öz əsasını müstəqil Azərbaycanın beynəlxalq ixtisaslaşmış "Caspian Oil and Gas" sərgisindən alır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış bu tədbir Prezident İlham Əliyevin dəstəyi ilə dünyanın ən nüfuzlu enerji tədbirlərindən birinə çevrilib. "Caspian Oil and Gas" regionun enerji sektorunun inkişafında mühüm rol oynayaraq, 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin müjdəçisi oldu. "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi ilə bağlı sazişin imzalanmasından hələ bir neçə ay əvvəl danışıqların nəticəsi qeyri-müəyyən idi. Məhz bu zaman Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, səyi və təşkilatçılığı ilə Bakıda ilk dəfə neft-qaz sərgisi keçirildi. 2012-ci ildə sərginin növbəti açılışında çıxış edən Prezident İlham Əliyev həmin dövrü belə xatırlayır: "O sərgi 1994-cü ildə təşkil edilmişdi. Birinci sərginin Azərbaycanın nəinki neft-qaz sənayesində, ümumi inkişafında çox böyük rolu olub. Çünki Azərbaycan gənc müstəqil dövlət idi. Dünyaya hələ özünü tanıtdıra bilməmişdi. Azərbaycanın zəngin neft-qaz yataqları haqqında, əlbəttə ki, mütəxəssis dairələrində bilgilər var idi. Ancaq geniş biznes dairələri bundan xəbərsiz idi. Məhz sərginin 1994-cü ildə keçirilməsi ilə Azərbaycanın imkanları, xüsusilə neft sektorundakı imkanları dünyaya təqdim edildi. Azərbaycana çox böyük maraq göstərilməyə başlandı. Sərgidən bir neçə ay sonra "Əsrin kontraktı" imzalandı. Yarandığı gündən etibarən, "Caspian Oil and Gas" sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü və memorandumların, habelə gələcək əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı məkana çevrilib. Keçirildiyi 30 il ərzində "Bakı Enerji Həftəsi" Azərbaycanda neft, qaz və enerji sənayesinin inkişafına töhfə verib, dünyanın 80 ölkəsindən 9000-dən çox şirkəti, 170 mindən artıq ziyarətçini cəlb edib.

Builki forum enerji sektorunun aktual çağırış və imkanlarını əhatə edən geniş və çoxşaxəli gündəmlə keçirilir. "Enerjidə Rəqəmsallaşma: Məlumat və Texnologiyanın Gücü", "Geoloji Kəşfiyyat - resursların aşkar olunmasında innovativ texnologiya üsulları", "Hasilat və Əməliyyatlar - innovasiya və dayanıqlıq ilə səmərəliliyin artırılması", "COP29 nəticələri - Dayanıqlı gələcəyə aparan yol", "Yaşıl enerji - Xəzər regionunda potensialının reallaşdırılması", "Qaz Bazarı - istehsalçı, nəqliyyatçı və istehlakçılar üçün yeni struktur", "Neft və Qaz kəmərləri - etibarlı infrastruktur vasitəsilə enerji təhlükəsizliyinin təmin edilməsi" kimi mövzular forumun əsas istiqamətlərini təşkil edir.

Hazırda Azərbaycan sabit iqtisadi sistemə malikdir, iqtisadiyyatımız inkişaf etməkdədir. Açıq dənizə çıxışı olmayan Azərbaycanın qısa müddətdə regionun mühüm nəqliyyat qovşağına çevrilməsi çox böyük uğurdur. Ölkəmiz yol-nəqliyyat infrastrukturunu inkişaf etdirmək üçün müxtəlif layihələrin icrasına böyükhəcmli yerli və xarici investisiyaların cəlb edilməsinə nail olub. Yüksək səviyyədə icra edilən layihələr sayəsində respublikamızın nəqliyyat-tranzit imkanları əhəmiyyətli dərəcədə genişlənib. Vacib məqamlardan biri də ondan ibarətdir ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin inşasında "Yaşıl iqtisadiyyat" prinsipinə yüksək səviyyədə əməl olunub. Azərbaycan daim ekoloji tarazlığı qoruyub saxlamaqla, yəni ətraf mühiti qorumaqla öz vətəndaşlarının sosial-iqtisadi inkişafına çalışır. Yerli və beynəlxalq daşımaların idarə olunmasının təkmilləşdirilməsi, o cümlədən təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi məqsədilə "Ağıllı şəhər" konsepsiyasına start verilib. Bu konsepsiyanın məqsədi resursların istehlakı, israfı və ümumi xərcləri azaltmaqla enerji, nəqliyyat və kommunal xidmətlər kimi şəhər xidmətlərinin keyfiyyətini artırmaqdır. Ölkə iqtisadiyyatı üçün neft-qaz sektoru ənənəvi sahə olsa da, son zamanlar gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır və bərpaolunan enerji mənbələrindən istifadəyə dair gündəmdə iddialı hədəflər yer alır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "yüksək keyfiyyətli ekoloji mühit" və "yaşıl enerji" milli inkişaf prioritetləri olaraq seçilib, "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "Təmiz ətraf mühit" və "yaşıl artım ölkəsi" üzrə strateji çərçivə müəyyənləşdirilib. Xarici siyasət kursunda aparıcı beynəlxalq təşkilatlarla münasibətlərin qurulması, o cümlədən qlobal problemlərin həllində fəal iştirak dövlətimizin prioritet istiqamətidir. Bu baxımdan COP29-a ev sahibliyi etmək hüququnun ölkəmizə verilməsi növbəti uğurumuz idi. Bu beynəlxalq ictimaiyyətin Azərbaycana və onun gördüyü işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətinə verilən dərin hörmətin əlaməti idi. COP29 kimi böyük və vacib əhəmiyyətli beynəlxalq tədbiri təşkil edərkən Azərbaycan dövləti uğurlu nəticəyə əvvəlcədən də əmin idi. Artıq böyük tədbirlərin təşkilində zəngin təcrübəyə malik ölkəmiz COP29-u da yüksək səviyyədə təşkil etməklə ətraf mühitin qorunması, "yaşıl enerji"yə keçid proseslərinə öz töhfəsini vermiş oldu.

Şaxələndirilmiş iqtisadiyyatın təşviqi, bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfənin verilməsi, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, Azərbaycan xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində qətiyyət göstərən ölkəmiz davamlı tərəfdaşlıq və əməkdaşlığa sadiqdir. Qlobal və regional enerji təhlükəsizliyinin təmin olunmasında önəmli oyunçulardan olan Azərbaycan xüsusilə bərpaolunan enerji növlərinin inkişafı istiqamətində davamlı layihələr həyata keçirir, qonşu ölkələrin enerji sistemləri ilə sıx inteqrasiyaya, regionda sülhün, sabitliyin, təhlükəsizliyin qorunub saxlanmasına dəstək verir.

Müasir dünyanın reallıqlarını nəzərə alsaq, aydın görərik ki, enerji təhlükəsizliyi hazırda aktual məsələlərdən biridir. Azərbaycan əsasən neft-qaz ölkəsi kimi tanınsa da, COP29 bütün dünyaya göstərdi ki, hazırkı gündəliyi "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli enerji siyasətimizin prioritetidir. COP29-da Azərbaycanın uğurlu moderatorluğu ilə 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə hər il 300 milyard ABŞ dolları məbləğində yardım göstərilməsi haqda yekun qərar qəbul olundu. COP29-da əldə olunan əsas nailiyyətlərdən biri də 2022-ci ildə təşəbbüs kimi irəli sürülmüş və iqlim dəyişmələrinin təsirinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondlarının tam şəkildə institutlaşdırılmasıdır. Fondun 2025-ci ildən əməli fəaliyyətə başlaması nəzərdə tutulur. İtki və Zərər Fondlarının ölkələr tərəfindən vəd edilən maliyyə vəsaitinin həcmi 730 milyon dollardan çoxdur. İqlim dəyişmələrinin fəsadlarının kiçik ada dövlətlərinə təsirlərinin yaratdığı çətinliklərin həlli Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən COP29 Sədrliyinin prioritetlərindən biri kimi müəyyən olundu. Bu baxımdan, İtki və Zərər Fondlarının fəaliyyətə başlaması COP29 Sədrliyinin böyük uğuru oldu. Yekunda qəbul olunan digər qərarla Qlobal Adaptasiya Hədəfi sənədi ilə Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı. Həmçinin, növbəti COP sessiyaları çərçivəsində adaptasiya üzrə yüksək səviyyəli Bakı dialoqu çağırılacaq. Bu, inkişaf etməkdə olan ölkələrin maraqlarına uyğun olaraq, adaptasiya məsələsinin hər il COP-larda müzakirə olunmasını təmin edəcək. Azərbaycan dövləti daha bir genişmiqyaslı tədbirin öhdəsindən uğurla gəldi, bu sahədə yüksək səviyyəli təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi. Bütün tərəflərin yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbul etməsi bunun bariz göstəricisidir.

COP29 təşəbbüslərinin əsas hərəkətverici qüvvəsi olan "yaşıl enerji" gündəliyimiz də əhəmiyyətli irəliləyişlər əldə edib. Daxili istehlakla yanaşı, Azərbaycanın əhəmiyyətli "yaşıl enerji" potensialı Avropaya və Türkiyəyə ixrac ediləcək. Bundan əlavə, Qazaxıstan, Özbəkistan və Azərbaycan arasında "yaşıl interkonnektor"un yaradılması üzərində iş gedir və bunun son təyinat nöqtəsi də Avropa olacaq. Bundan əlavə, Azərbaycan, Türkiyə, Gürcüstan və Bolqarıstan "yaşıl enerji"nin ötürülməsi və ticarəti sahəsində əməkdaşlıq etmək üçün Anlaşma Memorandumu imzalayıblar. Bu təşəbbüslər "yaşıl enerji"yə çıxışdan daha çox məna ifadə edir. Onlar regional əməkdaşlığı gücləndirir. Rumıniya, Macarıstan və Bolqarıstan əsas oyunçulardır, Gürcüstan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Azərbaycan isə "yaşıl enerji" ixracı üçün yeni üfüqlər açır. Bu, Xəzərdə külək enerjisi inkişafı, avadanlıq təchizatı, enerji ticarəti və layihələrin maliyyələşdirilməsi üçün geniş infrastruktur inkişafı imkanları yaradır, beynəlxalq şirkətlərə və maliyyə qurumlarına fayda verir.

Bu siyasət regionda enerji sahəsində uğurlu transformasiya üçün mükəmməl bünövrəni təmin edəcək. Perspektivlərin vəd deyil, əməli iş olduğunu təsdiqləyən fakt işğaldan azad edilmiş ərazilərdə yeni generasiya güclərinin yaradılmasıdır. Bu amillər beynəlxalq bazarlarda yeni enerji resurslarının etibarlı təchizatçısı kimi Azərbaycanın mövqeyini daha da artırır və onu gücləndirir. Qarabağ və Şərqi Zəngəzurda günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Xatırladaq ki, bu məqsədlər üçün Səudiyyə Ərəbistanı Krallığının "Masdar" və "ACWA Power" şirkətləri ilə müqavilələr imzalanıb. Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual layihələr hazırlanıb, müasir dövrün tələbinə uyğun bərpaolunan enerji mənbələrindən ibarət unikal "yaşıl enerji zonası" konsepsiyasının yaradılması üçün nəzərdə tutulan layihələrin həlli istiqamətində işlər davam etdirilir. Azərbaycanın nəhəng təbii qaz ehtiyatları ilə yanaşı, dünya ölkələrinin maraq göstərdiyi bərpaolunan enerji sahəsində Azərbaycanın zəngin təbii resurslara malik olması "yaşıl artım" layihəsinin həlli üçün geniş imkanlar vəd edir.

"Bakı Enerji Həftəsi" Azərbaycan Prezidenti İlham Əliyevin mütəmadi iştirakı tədbirin yüksək statusunu və əhəmiyyətini vurğulayır. Ölkə başçısı sərgiləri ziyarət edərək iştirakçılar və ekspozisiyalar ilə tanış olur. ABŞ və Türkiyə prezidentləri, eləcə də Böyük Britaniyanın Baş naziri kimi dünya liderlərinin iştirakçılara ünvanladığı məktublar bu tədbirin beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini təsdiqləyir.

**Mustafa KAMAL,**
**"Respublika".**